**UOT 091**

**Dilarə Ərəstun qızı Müzəffərli**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Doktorant**
**E-mail: artdilara@yahoo.com**

# ƏLYAZMA KİTABLARININ MİNİATÜRLƏRİNDƏ QROTESKLİ OBRAZLAR

**Xülasə:** Məqalədə orta əsr müsəlman rəssamları tərəfindən qrotesk yaradıcılıq metodunun bədii istifadəsi araşdırılır. Orta əsr müsəlman əlyazma kitablarındakı miniatür təsvirlər ondan xəbər verir ki, rəssamlar öz illüstrasiyalarında ədəbi əsərin müəllifinin yaratdığı ədəbi obrazı fərdi şəkildə dərk etmişlər. Qrotesk obrazlar daha çox ikinci dərəcəli personajların obrazlarında müşahidə olunur. Qrotesk fərdiləşmənin müşahidə olunduğu bir çox təsvirlər karikatura xüsusiyyətlərini daşıyır. Orta əsr rəssamlarının yaratdığı qrotesk obrazların ən ümumi xüsusiyyətləri satira və yumordur.

**Açar sözlər:** miniatür, İslam boyakarlığı, qrotesk, yaradıcılıq üsulu, əlyazma kitabı, bədii şişirtmə, bədii təhrif

Orta əsrlərin əlyazma kitablarını bəzəyən illüstrasiya-miniatürlərin ikonoqrafik araşdırılması nəticəsində o dövr rəssamların öz yaradıcılığında qrotesk metodundan istifadə hallarını müəyyən etmişdi. Rəssamların yaratdığı miniatürlərdə bədii obraza şəxsi münasibətin də ifadə olunması diqqəti cəlb edir. Rəssamın ədəbi əsərin məzmununa, onun qəhrəmanlarına münasibəti, özünəməxsus qrotesk formalı obrazların meydana gəlməsinə şərait yaratmışdır və bu obrazlar vasitəsilə rəssam ədib-müəllifin yaratdığı poetik obraza öz təsviri münasibətini ifadə edə bilmişdir.

Klassik ədəbi süjetlərə belə yaradıcı rəssam münasibəti bu dövrdə inkişaf edən miniatür sənətinə güclü təkan verir. Klassik ədəbiyyata yaradılmış kitab illüstrasiyalarında əsas süjet xətti, onun qəhrəmanları ilə bərabər ikinci dərəcəli, bilavasitə süjetin ana xəttinə aid olmayan, qroteskli motivlər və subyektiv vizual interpretasiyalar yaranır. “Miniatürlərin yaradılması zamanından və məkanından, həm də rəssamın fərdi sənətkarlığından asılı olaraq, geniş yayılmış bu süjetlərin ifadə tərzi qismən dəyişsə də, onların ümumi kompozisiyası sxemi ənənəvi olmuşdur” [1.s.10]

Ümumiyyətlə, Orta əsrlərin bəzi miniatürlərində qəribə üslub, təsvir edilənin bədii vasitələrlə şişirdilməsi tendensiyası genişlənir. Bu cür təsvirlərin xarakterik xüsusiyyətləri kimi: fərdi görüntü ifadəsi, portret xüsusiyyətlərinin məqsədyönlü

seçimi, fərdi detalların qabardılması, qrafik və plastik formanın stilizasiyası, ölçü nisbətlərin şüurlu təhrifi, anatomik təhriflər, məzmun və semantik vurğulamanın yerdəyişməsi və gücləndirilməsi vasitəsilə təsvirin müəyyən hissələrinin deformasiya və ya təhrif olunması açıq-aşkar artmışdır.

Belə miniatürlərdən İbn Bəhtişunun "Mənafi əl-Heyvan" ("Heyvan xüsusiyyətlərinin kitabı və onların orqanlarının faydaları barədə"), Əl-Biruninin "Əl-Attar əl-Bakiyyə", ("Qədim insanların tarixi"), Rəşidəd-Dinin "Cəmi ət-Təvarix" ("Ümumi tarix"), Hafizin "Divanı" (1525-ci il, 1527-ci il), Firdovsinin, "Şahnamə", Nizami Gəncəvinin "Xəmsə" və digər əlyazma kitablarının miniatürlərini qeyd etmək olar [3. s.69].

İbn Bəhtişunun XIII əsrdə Marağada köçürülmüş "Mənafi əl-Heyvan" əlyazma kitabının miniatürləri bu baxımdan ən erkən nümunələrdir (50.t.105-107). Əlbəttə, əlyazma və onun miniatürləri, bir istinad xarakteri daşıyır və heyvanları təsvir edən sənətkar bəzən heyvan və ya quş obrazına özünün şəxsi münasibətini bildirməkdən çəkinmir. Bəzən onlara asanlıqla tanınan və müəyyən bir emosional əsasda qəbul edilən üz ifadələri, üz cizgiləri, insan xüsusiyyətlərini əks edən ifadələr verir.

"Mənafi əl-heyvan əlyazmasına çəkilmiş 94 miniatürdən bir qismi Mesopotamiya-Bağdad məktəbi üslubunun, bir hissəsi Şərqi Türküstandan gələn Çin-Uyğur üslubunun təsirini əks edir"(2. s.10-11].

Belə miniatürlərdən birində iki tutu-quşu təsvir olunub. Miniatürdə hər iki quş təsviri biri digərinə kontrast təşkil edir. Belə ki, oturan və uçan vəziyyətdə verilmiş quşlardan biri aşağıda digəri isə ondan yuxarıda təsvir olunur. Oturan quşun daha yaşlı, başını döndərib arxaya baxması, baxışları, zəif, gücsüz obrazı onun üzərinə hücum çəkən, gənc, iti baxışlı, güclü, uçan quşun obrazını bir qədər də qabardır. Əsərdə quşlar vasitəsilə ifadə olunan və daha çox yaşam tərzində, insanlar arasında müşahidə olunan güclü və gücsüz, müdrik və cahil və digər bu kimi obrazlar öz əksini tapır.

Miniatürün qrotesk xüsusiyyəti quşların baxışlarının və onların birinin digərinə olan nisbətindən irəli gəlir. Gənc, güclü, aktiv quşun baxışlarında hökmlülük, sərtlilik, yaşlı, artıq zəifləmiş, passiv quşun baxışlarında isə məzlumluq, çarəsizlik qroteskləşdirilərək daha da qabardılmışdır. Beləliklə də müəllifin bu əsərində qrotesk xüsusiyyətlərinin təsviri vasitəsilə biri-birinə əks olan iki qüvvənin – güc və gücsüzlüyün, zəifliyin münasibəti ön plana çəkilmişdir.

Orta əsrlərdə Fəzlullah Rəşidəd-Din tərəfindən yazılmış "Cəmi ət-Təvarix" (Edinburq Universitet Kitabxanası) əsərinə qrotesk və sarkazm xarakterli, qəribə təfsirlərlə müşayiət olunan miniatürlər də çəkilmişdir.

“Kitab miniatürləri bilavasitə əfsanəvi və tarixi hadisələri illüstrə etdikdə əsas məzmunla bərabər – məcazi məzmunları da ifadə etmişlər”[4. s.25]

Təsvirlərdən təəccüb doğuran “Samson fələstinlilərin məbədini məhv edir” miniatürü diqqəti cəlb edir. Miniatürdə bilərəkdən şişirdilmiş ölçü nisbətləri və böyütmə ilə təsvir edilən Samson gücü, qüvvəsilə ilə “cırtdan” fələstinlilərin büt məbədini məhv etməsi təsvir olunur. Burada sənətkar qəhrəmanlıq gücünü vurğulamaq üçün Samsonun ölçüsünü qəsdən şişirdilmiş şəkildə təsvir etmişdir. Beləliklə də müəllif ölçü nisbətlərin bu cür şişirdilməsi, qroteskləşdirilməsi vasitəsilə personajın gücünü qabarıq şəkildə təsvir edərək öz fikrini ifadə etməyə nail olmuşdur.

Orta əsrlərdə Firdovsinin “Şahnamə” əsərinə çəkilmiş miniatürlərdə də qrotesk elementlərinə rast gəlinir. 1330-1340-cı illərdə yaradılmış “İskəndərin dəmir döyüşçüləri” adlı miniatürdə ağızlarından alov püskürən, dairəvi, təkərli ayaqları olan atlar və həmin atların üzərində əli nizəli dəmir döyüşçülər təsvir olunmuşlar. Əslində bu obrazlar zirehli döyüş arabalarında hərəkət edən döyüşçüləri ifadə etmişlər.

Bildiyimiz kimi, Makedoniyalı İskəndərin ordusunda ağır silahlanmış zirehli süvari döyüşçülər olmuşlar və onlar dəmir döyüşçülər kimi tanınmışlar. Şübhəsiz ki, şəxsi münasibətini bildirməkdən çəkinməyən rəssam da miniatürdə dəmir döyüşçü obrazını yaratmaq məqsədilə qrotesk elementlərindən, şişirdilmədən istifadə etmişdir.

Orta əsrlərin ayrı-arı vərəqlərdən yığılmış və “Mürəqqə” şəkilində toplanan bəzi rəsmləri qrotesk elementləri ilə diqqəti cəlb edir. Belə xüsusi “Albom”lardan olan, XV əsrdə məşhur uyğur mənşəli rəssam Məhəmməd Siyah Qələmin yaratdığı və “Mürəqqə” şəkilində toplanan rəsmləri qeyd etmək yerinə düşər.

Məhəmməd Siyah Qələmin illüstrasiyalar toplusunun böyük bir qismi “Saray Albomunda” (“Fateh Albomu”) yığılmış və İstanbulun Topqapı Sarayı muzeyin- də saxlanılır. Satirik karikatura xarakterli təsvirlərin bir qismi isə məşhur alman kolleksiyaçısı Ditsin – “Dits albomunda” (“Dietz Album”) adı altında toplanaraq Almaniyanın Berlin İslam İncəsənəti Muzeyində qorunur.

Xalq rəvayətlərinin, deyimlərinin, müxtəlif satirik və mifoloji personajları və hadisələrini əks edən bu miniatür təsvirləri Çin-Uyğur üslubunda işlənərək Uzaq Şərq, Orta Şərq və Yaxın Şərq təsviri ənənələrinin sintezini özündə əks etdirir. Məhəmməd Siyah Qələmin təsvirlərində insan münasibətlərini, xarakterlərini və həyatı situasiyalarını məcazi mənada ifadə edən fantastik personajlara rast gəlirik. Bunların arasında cin və əcinnələr, divlər, əjdahalar, insan və müxtəlif fantastik canlılar təsvir olunaraq qrotesk və ya satirik obrazlar qalereyasını təşkil edir- lər. Rəssamın təsvir etdiyi həyati hadisələrə satirik və qroteskli münasibəti həmin personajların qroteskləşməsinə, əcaib formalara düşməsinə və son nəticədə irreal,

“paralel” aləmin qəhrəmanlarına çevrilməsinə səbəb olur. Lakin bu irreal aləmin qəhrəmanları tamaşaçıya çox tanış gələrək onun yaşadığı və tanıdığı dünyada və cəmiyyətdə olan insan münasibətlərini və kontrastlarını əks edirlər.

Şərq demonologiyasının illüstrasiyaları sayılan bu əsərlər qroteskdən istifadə edərək, üzdə olan və gizli qalan mənaları, təfərrüatları özünəməxsus şəkildə ifadə edirlər. Təsvirlər əsasən ağ-qara rəngdə olmaqla bəzilərində cüzi olaraq şəffaf rənglərdən istifadə olunmuşdur. Bu üsul ilə təsvir edən rəssam “Siyah Qələm” (qara qələm) təxəllüsü ilə məşhurlaşmışdır.

Bütün yuxarıda deyilənlərin bariz nümunəsi kimi rəssamın Türkiyənin İstanbul Topqapı Saray Muzeyində saxlanılan rəsmlərini göstərmək olar. Bu rəsmlərin əksəriyyətində heç bir yazılı mətn olmadığından o təsvirlərin məzmunu və qəhrəmanları haqqında birmənalı fikir söyləmək çətindir. Bu səbəbdən Siyah Qələmin bu silsiləsinə daxil edilən rəsmlər şərti olaraq adlandırılmışlar.

Rəssamın belə qrotesk xarakterli rəsmlərindən biri “İblisin əjdahanı ram etməsi” miniatürüdür. Rəsmdə iki İblisin əjdahanı hiyləgərliklə, özlərinə tabe etməsi təsvir olunmuşdur.

Bildiyimiz kimi İblis Allahın qəzəbinə gəlmiş, Cənnətdən qovulmuş və cəzalandırılması üçün Məhşər gününə qədər möhlət istəmiş mələkdir. Həmişə öz niyyətini həyata keçirmək üçün and içmiş, görünməz dünyanın bu varlığı Məhəmməd Siyah Qələmin rəsmlərində xüsusi yer almışdır. Müəllifin “İblisin əjdahanı ram etməsi” miniatüründə güc, qüdrətin rəmzi və Şərq aləmində xeyirxahlıq rəmzi olan əjdahanın gücsüz, zəif varlıq olan İblis tərəfindən hiylə vasitəsilə ələ keçirilməsi təsvir olunur. Rəsmdə İblisin əjdahanı məhz, arxa tərəfdən hiyləgərliklə tutaraq ələ keçirməsi və digər İblisin isə əlindəki ip ilə onu bağlamaqla özlərinə tabe etmək niyyəti nəzərə çarpır. Müəllif burada iki iblis obrazı yaratmaqla bir İblisin özünü, digəri isə onun idarə etdiyi məxluqu təsvir etmişdir. Beləliklə də rəssam əsərində bu obrazlar vasitəsilə məcazi olaraq – insanları, onların arasındakı münasibətləri ifadə etmişdir.

Rəssamın insanların yaşam tərzini, münasibətləri kolliziyasını əks etdirən başqa bir əsərində də isə reallığın qrotesk elementləri qabarıq şəkildə ifadə olunmuşdur. Rəsmin qroteskliyi ulaq və onun sahibi arasında olan münasibətləri əks edən təsvirdə özünü büruzə verir. Əsərdə öz şəxsi mənfəəti üçün istifadə etdiyi heyvanı – ulağı ailəsindən – xanımı və övladlarından üstün tutan ailə sahibinin onu necə bəsləməsi istehza ilə təsvir olunur. Baxışlar və ümumi görünüşü ilə dinamik tərzdə yaradılan obrazlar – ac, qidaya ehtiyacı olan ana və uşaqlar heç bir nüfuza sahib olmadıqları üçün çarəsiz vəziyyətdə sahibini və ulağın onların “payını” yeməsini seyr edirlər. Müəllif burada ulağın qroteskli obrazını yaratmaqla yaşadığı dövr, cəmiyyətdə mövcud olan münasibətlər reallığını əks edir.

Ümumiyyətlə, rəssamın konkret heç bir şeyə aid olmayan, biri digərinə qarşı, real dünya ilə mifik dünya varlıqlarının bir arada təsvir olunması, yaxşı ilə pisə öz şəxsi münasibətini bildirən rəsmləri qrotesk elementləri ilə zəngindir.

XV əsrin qrotesk vasitəsilə təsvir olunan miniatürlərindən biri də Topqapı Saray Muzeyində saxlanılan "Fateh Album"dan məşhur "Gəlinin köçməsi" miniatürüdür. Rəssam bu əsərində, gəlini gələcək evinə müşayiət edən qoruqçu-əsgərlər, dərvişlər, qulluqçu, yengə və digər personajların köçdə iştirak etməsini təsvir etmişdir. Gəlini gözləyən təbərzinli dərviş də dağların arxasında, arxa planda görünməkdədir. Dərvişlərin qəribə, şişirdilmiş, satirik görkəmləri rəssamın dərviş cəmiyyətinə mənfi münasibətini ifadə edir. Təsvir məkanını gəlin və onun qulluqçusunun yeni evə gətirilməsi və bu səfəri müşayiət edən cangüdənlərin təsvirləri bəzəyir. Maskaradlı şənliyi əks etdirən miniatürdə ikiüzlülük, hiyləgərlik qrotesk təsvir vasitələri ilə ifadə olunmuşdur.

Miniatürlərdə qroteskin mövcudluğu baxımından N.Gəncəvinin Təbrizdə köçürülmüş "Xəmsə" əlyazmasına çəkilmiş rəsm əsərləri sırasında fantastik, qroteskli obrazların olması diqqəti cəlb edir. "Bütün bunlar sübut edir ki, rəssam və onun yaradıcılığı xalqın həyatı ilə sıx əlaqəli olmuşlar"[5. s.79]

Orta əsrlərin digər miniatürlərində olduğu kimi burada da əlyazma və onun miniatürləri bir istinad xarakteri daşıyır. Rəssam Sultan Məhəmməd tərəfindən çəkilmiş "Məhəmmədin peyğəmbərin meracı" miniatürü də bu baxımdan maraq doğurur. Əsərdə Məhəmməd peyğəmbərin meracı (gecə vaxtı sehrli uçuşu) təsvir olunur. Burada nur, işıq içərisində verilən peyğəmbərin özü, onu göylərə qaldıran qadın başlı və qanadlı fantastik atı (Büraq), onları hər tərəfdən əhatələyən mələklər peşəkarlıqla təsvir olunmuşlar. Peyğəmbərin uçuşunu əks etdirən miniatürdə qroteskli elementlər insan formalı qanadlı mələklərin və qadın başlı, qanadlı atın təsviridir.

Rəssam miniatürdə ümumi emosionallığın artırılmasına xidmət edən digər obrazlardan fərqli olaraq əfsanəvi Büraq obrazını qrotesk vasitəsilə gücləndirməklə onu ön planın Məhəmməd Peyğəmbərə bərabər mühüm personajına çevrilməsini təmin etmişdir.

İnkişaf etmiş orta əsrlərdə kitab tərtibatının inkişafı, klassiklərin əlyazmalarına rəsmlərin çəkilməsi və s. səbəblər digər sənət sahələrinə nisbətən rəsm, miniatür sənətinin daha çox inkişaf etməsinə təsir göstərmişdir. Buna görə də sənətkarlar hansısa bir hadisəyə, cəmiyyətə, insanlara və s. olan şəxsi münasibətlərini daha çox miniatürlərdə, əlyazmaları rəsmlərdə şişirdilmiş, əcaibləşdirilmiş qrotesk xüsusiyyətli təsvirlər yaratmışlar. "Obrazların təsir gücünü artırmaq məqsədi ilə rəssamlar insan sifətlərinin cizgilərini və pozalarını yüksək ustalıqla təsvir etməyə öyrənmişlər."[6. s.37]

**Ədəbiyyat siyahısı:**

1.Kərimov K. Nizami Gəncəvi. Xəmsə miniatürləri. “Yazışı” Bakı 1983
2.Həsənzadə C.Y. Təbrizin Solmaz boyaları
3.Гасанзаде Дж. Ю. Зарождение и развитие тебризской миниатюрной живописи в конце XIII - начале XIV веков. Баку. «Озан». 1999 г.
4.Казиев А.Ю. Художественное оформление Азербайджанской рукописной книги XIII-XVII веков. «Книга», Москва 1977
5.Керимов, К. Султан Мухаммед и его школа, Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutu, 1970 г., с.190.
6.Пугаченкова Г., Галеркина О. Миниатюры Средней Азии. «Изобразительное искусство», Москва 1979

**Диляра Арастун кызы Музаффарли**

**ГРОТЕСКОВЫЕ ОБРАЗЫ В МИНИАТЮРАХ РУКОПИСНЫХ КНИГ**

**Резюме:** В статье исследуется художественное использование творческого метода Гротеск средневековыми мусульманскими художниками. Миниатюры-иллюстрации в средневековых мусульманских рукописных книгах свидетельствуют о том, что художники в своих иллюстрациях отражали свое индивидуальное понимание литературного образа, созданного автором литературного произведения. Гротесковые образы чаще наблюдаются в образах второстепенных персонажей. Многие образы, в которых наблюдается гротескная индивидуализация, несут в себе черты карикатуры. Сатира и юмор являются наиболее частыми признаками созданных средневековыми художниками гротесковых образов.

**Ключевые слова:** миниатюра, исламская живопись, гротеск, творческий метод, рукописная книга, художественное преувеличение, художественное искажение

**Dilara Arastun gizi Muzaffarli**

**GROTESQUE IMAGES IN MINIATURES OF HANDWRITTEN BOOKS**

**Summary:** The article explores the artistic use of the Grotesque creative method by medieval Muslim artists. Miniature illustrations in handwritten books testify that the artists in their illustrations demonstrated their individual understanding of the literary image created by the poet. Grotesque images are more often observed in the images of secondary characters. Many images in which

grotesque individualization is observed bear the features of a caricature. Satire andhumor are the most common features of images created by medieval artists.

**Key words:** miniature, Islamic painting, grotesque, creative method,handwritten book, artistic exaggeration, artistic distortion

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**